# "Biz qalib ölkənin uşaqlarıyıq"



## Cəbrayıl

**"Konstitusiya və Suverenlik İli" çərçivəsində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş "Biz Qalib ölkənin uşaqlarıyıq" adlı tədbir keçirildi.**

Tədbirdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, icra hakimiyyəti aparatının, Uşaq Səfirlər Məclisinin nümayəndəsi, təhsil və mədəniyyət sektorunun məsul əməkdaşları, məktəbəqədər təhsil müəssisələrinin kollektivləri və ictimaiyyət nümayəndələri iştrak etdilər.



Ümummilli lider Heydər Əliyevin, respublikamızın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik yad edildi. Tədbirdə rayon icra hakimiyyəti başçısının müavini Fəridə İbayeva uşaqlara göstərilən dövlət qayğısından, onların sağlam, savadlı və vətənpərvər ruhda böyüməsindən geniş söhbət açdı. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət uşaq siyasətinin prioritet olmasından, bu istiqamətdə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri qeyd olundu.

Tədbirin bədii hissəsində Böyük Mərcanlı kənd Uşaq İncəsənət Məktəbinin şagirdlərdən ibarət "Mərcan" ansamblının hazırladığı konsert proqramı dinlənildi, uşaq bağçalarının balaca fidanları Vətənə, xalqa, anaya, şəhidlərə aid şeirlər söyləyib, mahnılar oxuyub rəqs etdilər.



## İsmayıllı

**Azərbaycan uşaqların rifahı üçün beynəlxalq konvensiyalara qoşulmuş və bu sahədə mühüm addımlar atmışdır. Hər il iyunun 1-i Azərbaycanda da Beynəlxalq Uşaqları Müdafiə Günü qeyd olunmaqla, uşaq hüquqlarının qorunmasına, onların sağlam böyüməsinə və inkişafına xüsusi diqqət yetirilir. İsmayıllıda da Uşaqların Beynəlxalq Müdafiəsi Günü müxtəlif tədbirlər və şüarlarla qeyd edilib.**

Bu il ənənəyə sadiq qalmaqla, İsmayıllıda Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Ailə, Qadın və Uşaq



Problemləri üzrə Dövlət Komitəsinin tabeliyində olan İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzinin dəstəyi ilə Uşaq-Gənclər İnkişaf Mərkəzinin zalında "Uşaqların dəb dünyası" adlı əyləncəli tədbir keçirilib. Tədbirdə uşaqların fəal iştirakı ilə rəngarəng dəb nümayişi təşkil edilib. Xüsusi maraq doğuran məqam isə münsif qismində çıxış edən uşaqların öz həmyaşıdlarının təqdimatlarını qiymətləndirməsi olub. Tədbir boyu uşaqlar maraqlı rəqs nömrələri göstərib, şən mahnılar oxuyub, tədbir iştirakçılarına xoş əhvali-ruhiyyə bəxş ediblər.



Tədbirin sonunda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin layihəsi əsasında fəaliyyət göstərən Uşaq Səfirlər Məclisinin İsmayıllı rayonu üzrə fəal nümayəndələrinə, mərkəzin təşkil etdiyi maarifləndirmə tədbirlərində, eləcə də "Uşaqların dəb dünyası" adlı əyləncəli tədbirdə fəal iştirak edənlərə Həmkarlar İttifaqı İsmayıllı rayon təşkilatının və Uşaq Ailələrə Dəstək Mərkəzinin hədiyyələri ilə bərabər təşəkkürnamələr təqdim edi-



lib. Bu cür tədbirlər regionlarda yaşayan uşaqların istedadlarını nümayiş etdirməsi, özünəinamın artması və əyləncəli vaxt keçirmələri üçün xüsusi stimul yaradır.

**"Respublika".**

Respublika.- 2025.- 3 iyun (№ 114).-